Ağdam: yolların və işıqların qovuşduğu şəhər



Dörd il bundan əvvəl Ağdamdan bütün dünyaya səslənən Prezident İlham Əliyev çox böyük qətiyyət və inamla bildirdi ki, biz bu torpaqlara şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq.

Yeni şəhərdə 100 min nəfər yaşayacaq

Otuz ilə yaxın Ermənistanın işğalı və hərbi təcavüzü altında qalan, erməni faşistləri tərəfindən talan edilən, yağmalanan, dağıdılan qədim yurd yerlərimiz Qarabağ və Şərqi Zəngəzur qəhrəman Silahlı Qüvvələrimizin bölmələrinin şücaəti ilə azad edildikdən sonra bu torpaqlara ləyaqətli həyat qayıdır, quruculuq, dirçəliş, bərpa sürətlə aparılır. Ağdamda ermənilərin müharibə cinayətləri ölçüyəgəlməzdir, bu dağıntılar ermənilərin qorxulu və təhlükəli mahiyyətindən xəbər verir, düşmən bu qədim şəhərdə Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirib. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib.

Ağdamda tariximizin açılmayan qatları mövcuddur, burada qədim şəhərsalma mədəniyyəti mövcud olub, məqbərə komplekslərinin tikintisi, dulusçuluğun, misgərliyin, boyaçılığın inkişafı keçmiş sənətkarlıq ənənələri ilə bağlı olub. Ağdam həm dağlıq, həm də aran rayonu olub və bu yerlərdə ana təbiətin yaratdığı gözəllik bir-birinə qovuşur. Rayon ərazisində qədim dövrlərə aid kümbəzlər, daşdan yonulmuş qoç və at fiqurları, məqbərələr, kahalar var idi. Ağdamı etnik nifrət zəmininde vəhşiliklə dağıdıblar, bu torpaqları yandırıblar, hətta meyvə ağaclarını doğrayıblar, qəbiristanlıqları eşim-eşim eşiblər. Görün, biz necə vəhşi bir düşmənə, varvarlara, körpə qatillərinə, qaraçı və köçəri bir tayfaya, erməni faşizminə qalib gəlmişik. Qalib Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi və müzəffər ordumuzun vuran qolu, gücü, qəhrəmanlığı sayəsində, çox şükür ki, 30 ildən sonra doğma torpaqlarımıza qədəm qoyuruq, yurdun havasını uduruq, suyundan içirik, qurub-yaradırıq. İşğaldan azad olunmasından dörd il keçməsinə baxmayaraq, düşmənin Ağdamda törətdiyi xarabalıqların yerində yeni və müasir binaların ucaldılması firavan və xoşbəxt gələcəkdən xəbər verir, yeni və rahat yollar keçmiş məcburi köçkünlərin Böyük Qayıdışında müstəsna əhəmiyyət daşıyır. "Qafqazın Xirosiması" kimi tanınan Ağdam Azərbaycan Prezidenti İlham Əliyevin təməlini qoyduğu, şəhərsalmanın yeni modelinin tətbiq edildiyi qədim yurd yerimiz regionun ən gözəl şəhərlərindən birinə çevriləcək. Bu amal uğrunda Ağdamda çox böyük və zərgər dəqiqliyi ilə yeni və müasir infrastruktur qurulur, yaşayış binaları inşa olunur, məktəblər, xəstəxanalar və digər xidmət obyektləri tikilir, özü də sürətlə, doğma yurda məhəbbətlə. Düşmənin viran qoyduğu, altını üstünə çevirdiyi Ağdam dünyada sülh, əmin-amanlıq şəhəri kimi boy atır, doğma yurdlarından 30 il ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin edilir.

Prezidentin tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı da nəzərə alınaraq 100 min nəfər əhali üçün Ağdam şəhəri yenidən qurulur, tarixi abidələr bərpa edilir, modern infrastruktur yaradılır. Bura yolu düşənlər şəhər ərazisində təzadlı bir mənzərənin şahidi olurlar. Bir tərəfdə işğalçıların dağıtdıqları evlərin uçuq divarları, həmin uçuq divarlar arasında bitmiş ağaclar, digər tərəfdə isə qüllələri göyə ucalan kranlar, qarışqa kimi qaynaşan yük maşınları, quruculuq, qaynarlıq diqqəti cəlb edir. Ağdam böyük bir tikinti meydanına çevrilib və burada inşa edilən binalarda Şahbulaq daş karxanasında istehsal edilən ağ mişar daşlarından istifadə edilir. Qalib sərkərdə kimi 2020-ci il noyabrın 23-də Ağdama səfər edən Prezident İlham Əliyev şəhərdə Azərbaycan bayrağını ucaltdı. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Ağdam Cümə məscidini ziyarət etdilər. Prezident Ağdam məscidinin qarşısında çıxış edərək, erməni vandalizmini bir daha dünya ictimaiyyətinin diqqətinə çatırdı və Ağdamın yenidən bərpa ediləcəyini bildirdi. Otuz ilə yaxın davam edən işğal dövründə xarabalığa çevrilmiş Ağdam bu gün özünün yeni dirçəliş dövrünü yaşayır.

Dörd il əvvəl Prezident İlham Əliyev xalqa müraciətində Ağdam üçün yeni dövrün başlandığını, rayonun bərpasının gələcək planlarda xüsusi yer tutacağını bildirmişdi: "Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda dediyim kimi, əhali baxımından ən böyük rayondur". "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam şəhəri və kəndləri yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir. İşğaldan azad edildikdən sonra Prezident İlham Əliyev Ağdama çoxsaylı səfərləri zamanı yeni obyektlərin, yaşayış məntəqələrinin və massivlərin təməlqoyma mərasimlərində və açılışlarında iştirak edib, həyata keçiriləcək işlərlə tanış olub, tapşırıq və tövsiyələrini verib. Prezidentin işğaldan azad olunmuş ərazilərə hər səfəri regionun dirçəlməsi üçün ən vacib infrastruktur layihələrinin icrası, tarixi-mədəni, dini abidələrin bərpası ilə müşayiət olunur və "Böyük Qayıdış"ı addım-addım yaxınlaşdırır. Ağdam rayonunda da mühüm infrastruktur layihələri icra olunur. İnfrastrukturun yüksək səviyyədə yenidən qurulması həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayacaq.

Yolların və işıqların qovuşduğu şəhər

Ağdam yolların və işıqların qovuşduğu bir şəhərə çevrilir, yol rahatlıq, mədəniyyət, inkişaf, işıq isə aydınlıq, xoşbəxtlik, gələcək deməkdir. Sözün əsl mənasında, torpağın və işığın qovuşması Ağdamda əsl möcüzə yaradır, ucalan evlər, binalar isə quruculuğun, qələbənin fəlsəfəsini ifadə edir. Həyata keçirilən infrastruktur layihələri içərisində yolların yenidən qurulması xüsusi yer tutur. Ötən dövrdə uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib. Bərdədən Ağdam şəhərinədək 47,1 kilometr uzunluğunda olan dəmir yolu xətti çəkilib. Uzunluğu 64,8 kilometr olan Ağdam-Füzuli avtomobil yolunun inşası yekunlaşmaq üzrədir. Hazırda Ağdam, Hindarx, Ağcabədi və Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yollarının tikintisi davam etdirilir. Ağdam şəhərinin Baş planına əsasən, şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Magistral şəhər yollarının uzunluğu 17,5, ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. "Böyük Qayıdış"a dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq. Rayonun işğaldan azad edilmiş hissəsində həyata keçirilən layihələr arasında elektrik təchizatı xüsusi önəm kəsb edir. Artıq hər biri 110/35/10 kilovoltluq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları işə salınıb. "Ağdam-1" yarımstansiyası rayon mərkəzinin girişində, "Ağdam-2" yarımstansiyası isə rayonun Əsgərana yaxın, Şelli kəndi istiqamətində inşa edilib. Bu yarımstansiyalarda rəqəmsal idarəetmə mərkəzi yaradılıb. SCADA dispetçer idarəetmə sisteminə qoşulub. Paralel olaraq fiber-optik kabelin çəkilişi təmin edilib ki, bu da Ağdam şəhərinin yüksəksürətli internetlə təchiz olunmasına imkan verir. Rayonun dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib.

Ağdam şəhərinin mərkəzində həm də tarixi-mədəni ərazi salınacaq. 22,5 hektarlıq ərazini əhatə edən bu məkanda Pənahəli xanın İmarət kompleksi, Çörək muzeyi, Dram teatrı, İşğal və Zəfər muzeyləri kompleksi olacaq. Ərazinin bir başında İşğal muzeyi, digər başında isə Zəfər muzeyi yerləşəcək. Onların arasında açıq səma altında 18 hektarda Memorial bağ salınacaq. Ağdam şəhəri müasir üslubda bərpa edilsə də, Memorial bağda xarabalıqlar, dağıdılmış binalar saxlanılacaq. Onları olduğu kimi qoruyacağıq ki, gələcək nəsillər bu tariximizi unutmasın, mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələri bilsin. Eyni zamanda bu xarabalıqlar hər kəsə müharibənin nə qədər acı nəticələrə gətirib çıxardığını anladacaq. Eyni zamanda dağıntılar arasında müvafiq təmizlik, abadlıq işləri görüləcək, cığırlar çəkiləcək, binalar haqqında müəyyən məlumatları əks etdirən gücləndirilmiş virtual texnologiyasından istifadə etməklə mobil aplikasiyalar tətbiq olunacaq. Məqsəd odur ki, İşğal muzeyi, Memorial bağ və Zəfər muzeyi Azərbaycan xalqının Birinci və İkinci Qarabağ müharibəsində keçdiyi tarixi göstərə bilsin. Bir zamanlar nəinki Qarabağın, eləcə də respublikamızın ən inkişaf etmiş, abad şəhərlərindən olan Ağdamda hazırda böyük tikinti bumu yaşanır. Prezident İlham Əliyev ötən dörd ildə Ağdama səfərləri zamanı yaşayış məhəllələrinin, sənaye parkının, 1 saylı orta məktəbin, xəstəxananın, şəhər mərkəzi parkının, dəmir yolu və avtovağzal kompleksinin, Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, "İmarət" stadionunun, Ağdam Muğam Mərkəzinin, inzibati binanın, "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Xıdırlı, Kəngərli, Sarıcalı, Qiyaslı, Salahlı Kəngərli, Baş Qərvənd, Tağıbəyli, Güllücə, Nəmirli, Şotlanlı, Eyvazxanbəyli kəndlərinin, Atçılıq Nəsilartırma Mərkəzinin və digər obyektlərin təməlini qoyub. Artıq Ağdamda Konfrans Mərkəzinin, "Aghdam City Hotel"in tikintisi, Cümə məscidinin, İmarət kompleksinin bərpası başa çatdırılaraq istifadəyə verilib. Ağdam şəhərində yaşayış məhəllələrinin, həmçinin Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərində tikinti işləri davam etdirilir. Sarıcalı kəndində 203, Kəngərli kəndində 292, Xıdırlı kəndində isə 719 ev inşa olunur. Hər 3 kənddə evlərlə yanaşı məktəblər, uşaq bağçaları, klub icma mərkəzləri, bayraq meydanı, bazar kompleksləri, məişət xidməti obyektləri, Ailə Sağlamlıq mərkəzləri, inzibati binalar və digər obyektlərin də tikintisi aparılır. Kəndlərdə alternativ enerji mənbələrindən istifadə olunacaq, mərkəzi kommunikasiya sistemi qurulacaq. Bu gün Ağdama gələnlər genişmiqyaslı tikinti-quruculuq işlərinin şahidi olurlar. Ağdam həm də yaşıl şəhərə çevrilir.

İstehsal müəssisələri, yeni iş yerləri

İşğaldan azad edilən yurd yerlərinə köçəcək insanların iş yerləri ilə təmin olunmaları üçün Ağdam Sənaye Parkı Qarabağda ilk nümunədir. Prezident İlham Əliyevin imzaladığı "Ağdam Sənaye Parkının yaradılması haqqında" Fərmanda bildirilir ki, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları və digər mühüm logistika potensialının mövcudluğu rayonda müasir infrastruktura malik sənaye parkının yaradılmasını zəruri edir.

Ağdam rayonunda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə icra olunan layihələrdən biri Ağdam Sənaye Parkıdır. Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən, yaradılan sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili müəyyənləşdirilib. Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci ən böyük sənaye mərkəzidir. Parkda ümumi investisiyalarının həcmi 238 milyon manat olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən Sənaye Parkında, ümumilikdə, 2045 iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək rezidentlər tərəfindən Sənaye Parkına 72 milyon manatdan çox investisiya yatırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Ağdama səfəri zamanı "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı, "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı, "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları istehsalı, "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodlarının açılışı olub. Fəaliyyətə başlayan yeni müəssisələr tərəfindən Ağdam Sənaye Parkına ümumilikdə 35 milyon manatdan çox investisiya yatırılıb, 400-dən artıq daimi iş yeri yaradılıb. Bəli, artıq Ağdamın yeni - bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb. İllərdir düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu bu yerlər indi geniş tikinti meydanına çevrilib. Çox keçməyəcək ki, bu yerlərə ayaq basanda işğalın ağır nəticələrinin deyil, xarabalıqların yerində inşa edilmiş və öz sakinlərini qoynuna almış müasir, yaraşıqlı bir şəhərin şahidi olacağıq. Ağır müharibədən sonra azad edilən torpaqlarda aparılan genişmiqyaslı quruculuq tariximizin şanlı, şərəfli, qəhrəmanlıq və davamlı inkişaf səhifəsidir, qətiyyətli sözün, gücün, qüdrətin, bir xalq olaraq birliyimizin simvoludur. 30 ilə yaxın bizi əzən, göz yaşlarımıza, kədərimizə, ürəyimizin başında köz kimi alışan yurd həsrətinə, torpaq nisgilinə, ayrılığa, didərginliyə son qoyulub, həsrətimiz vüsala qovuşub. Öz torpağımızda qurub-yaradırıq, bu, böyük xoşbəxtlikdir...

Salman ALIOĞLU,
"Respublika".